UOT 371.3

SONA MƏHƏRRƏMOVA
Sumqayıt Dövlət Universitetinin dosenti
ORCİD:0000-0002-7816-4916
sona.maharramova@sdu.edu.az

TARİXİN TƏDRİSİ PROSESİNDƏ İKT-DƏN İSTİFADƏ ETMƏ BACARIQLARININ FORMALAŞDIRILMASI

DOI: https://doi.org/10.36719/2708-065X/112/247-250

Müasir təhsil sistemində informasiya və kommunikasiya texnologiyaları (İKT) tədris prosesinin mühüm və ayrılmaz tərkib hissəsinə çevrilmiş, tarix fənninin məzmununu və tədris metodlarını əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Məqalədə tarix təlimində İKT-nin rolu, təhsilalanlarda rəqəmsal texnologiyalardan istifadə bacarıqlarının formalaşdırılması, onların müasir pedaqoji yanaşmalarla inteqrasiyası və bu prosesdə meydana çıxan çətinliklər təhlil olunur. Göstərilir ki, İKT-nin tətbiqi tarixi biliklərin daha səmərəli mənimsənilməsinə şərait yaratmaqla yanaşı, tənqidi düşünmə, tədqiqat aparma və informasiyanın emalı bacarıqlarının inkişafına da töhfə verir. Xüsusi olaraq tarixi hadisələrin virtual mühitdə yenidən qurulması, interaktiv xəritə və simulyasiyalardan istifadənin şagirdlərin motivasiyasının artmasına və dərslərin vizual cəhətdən daha cəlbedici olmasına təsiri vurğulanır. Nəticə etibarilə, İKT-kompetensiyalarının formalaşdırılması tədris prosesinin keyfiyyətinin yüksəldilməsində və inklüziv təhsil imkanlarının genişləndirilməsində əsas amillərdən biri kimi qiymətləndirilir, eyni zamanda bu sahədə mövcud pedaqoji və texnoloji məhdudiyyətlər qeyd olunur.

Açar sözlər: tarix tədrisi, İKT, interaktiv öyrənmə, bacarıq formalaşması, metod və strategiyalar.

Giriş. Hər bir xalqın gələcəyə doğru inkişaf yolu onun tarixi keçmişindən çıxardığı dərslərlə sıx bağlıdır. Tarix yalnız baş vermiş hadisələrin xronoloji ardıcıllığı deyil, eyni zamanda cəmiyyətlərin sosial, siyasi, iqtisadi və mədəni inkişaf trayektoriyasını formalaşdıran mühüm təcrübələr toplusudur. Bu baxımdan Tarix təliminin əsas məqsədi təhsilalanlarda keçmişə nostalji yanaşma formalaşdırmaq deyil, tarixi prosesləri dərk edərək onlardan nəticə çıxarmaq, müasir dövrün problemlərini anlamaq və gələcəyə yönəlmiş düşünmə bacarıqları qazandırmaqdır. Məhz bu kontekstdə Tarix tədrisində informasiya və kommunikasiya texnologiyalarının (İKT) tətbiqi və bu sahədə bacarıqların formalaşdırılması xüsusi aktuallıq kəsb edir.

Müasir dövrdə elm və informasiya əsaslı cəmiyyətdə layiqli mövqe tutmaq üçün tədris və öyrənmə prosesində hansı bacarıqların inkişaf etdirilməli olduğunu əvvəlcədən müəyyən etmək böyük əhəmiyyət daşıyır. İnformasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə sadəcə biliklərin əldə edilməsi yetərli olmur. Təhsilalanlara düşünmə, problem həlletmə və öyrəndikləri məlumatları real həyatda tətbiqetmə bacarıqları qazandırmaq vacibdir. Belə bacarıqlar, yalnız fərdlərin uğurlu karyera qurmasına deyil, həm də cəmiyyətin inkişafına töhfə verməsinə imkan yaradır [1].

Tarixin tədrisi prosesində İKT-nin rolu ənənəvi dərs üsullarını tamamlayaraq öyrənməni daha dinamik və effektiv edir. Tarixi hadisələri multimedia vasitələri ilə canlandırmaq, virtual ekskursiyalar təşkil etmək və interaktiv resurslardan istifadə öyrənənlərin diqqətini cəlb edərək abstrakt bilikləri konkretləşdirir. Müasir tədris prosesində İKT tələbələrdə informasiya savadlılığı, kritiki düşüncə və rəqəmsal bacarıqlar formalaşdırır, bu da onları XXI əsr şəraitinə uyğunlaşdırır.

Qlobal təcrübədə ABŞ-da "History Alive!" proqramı kimi İKT əsaslı layihələr təhsilalanların tarixi hadisələri virtual reallıq (VR) vasitəsilə “yaşamaşını” təmin edir və nəticədə öyrənmə səmərəliliyi artır. Avropada Finlandiyanın milli təhsil planında interaktiv taxtalar tarix dərslərində mütəmadi istifadə olunur, şagirdlərin aktivliyini yüksəldir. Azərbaycanda məktəb Tarix fənninin tədrisinə İKT-nin inteqrasiyası COVİD-19 pandemiyasından sonra daha da genişləndi. Belə ki, elektron dərsliklər və onlayn platformalar pandemiya dövründə tədrisin davamlılığını təmin etmişdir. Bu isə İKT-nin tədris prosesində müasir əhəmiyyətini – pandemiya şəraitində uzaqdan öyrənməni dəstəkləməklə təhsilalanları qlobal rəqabətə hazırlamaq bacarığını göstərir [2].

Tarix fənnində İKT-dən istifadənin əsas formaları multimedia, interaktiv taxtalar, onlayn resurslar və virtual ekskursiyalardır. Multimedia vasitələri (video, animasiya, slaydlar) tarixi prosesləri vizual şəkildə təqdim edir: məsələn, II Dünya Müharibəsinin xronologiyası interaktiv timeline proqramlarında canlandırılır. İnteraktiv taxtalar (SMART Board kimi) şagirdlərin qrupda işləməsinə imkan verir, real vaxt rejimində tarixi xəritələri dəyişdirmək və ya sənədləri annotasiya etmək imkanı yaradır. Onlayn resurslar (Google Earth, onlayn arxivləri) tarixi faktlara dərhal çıxış təmin edir. Virtual ekskursiyalar məsələn, Google Arts & Culture vasitəsilə Kolizeyə "səfər" şagirdləri passiv dinləyicidən aktiv kəşfçiyə çevirir. Tarixin İKT vasitələri ilə tədrisi öyrənməni fərdiləşdirərək motivasiyanı artırır [3].

Tarixin tədrisində İKT-dən istifadə bacarıqlarının formalaşdırılması. Bunun üçün təhsilalanlarda ilk növbədə İKT-dən istifadə etmək bacarıqlarını formalaşdırmaq lazımdır. Təlim prosesində formalaşdırılan bacarıqlar müasir təhsil sistemlərinin inkişafında mühüm rol oynayır. Təhsilin məqsədi yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmamalıdır. Bu günün cəmiyyəti, sosial və iqtisadi problemləri həll edə bilən, yaradıcı, tənqidi düşünmə və adaptasiya bacarıqları inkişaf etmiş fərdlər yetişdirmək tələb edir. Beləliklə, təlim və öyrənmə prosesində formalaşdırılan bacarıqların təsnifatı, həm təhsil sahəsindəki yeniliklərin, həm də əmək bazarının məqsədini güdür.

Təhsilalanlarda İKT-dən istifadə bacarıqlarının formalaşdırılması mərhələli yanaşma tələb edir. İlk növbədə onlarda proqramları açmaq biliyi, məlumat axtarmaq bacarığı, daha sonra isə əldə edilmiş məlumatları mənimsəmək, analiz etmək bacarıqlarını formalaşdırmaq lazımdır. Tarixin tədrisində elmi tədqiqat apararkən İKT-dən istifadə şagirdlərin kognitiv inkişafının sürətləndirdiyi müşahidə olunmuşdur. Belə ki, İKT vasitəsilə tarixi layihə hazırlamaqda axtarış, redaktə və təqdim etmə bacarıqları formalaşır. Tədqiqatlar göstərir ki, "Digital History" kimi layihələrdə şagirdlərin onlayn arxivlərdən məlumat toplayıb infoqrafika yaratmaları, onlarda informasiya filtrasiya bacarığını inkişaf etdirir. Tarix tədrisində İKT bacarıqlarının formalaşdırılması təhsilalanları yalnız keçmiş hadisələrlə tanış etmir, eyni zamanda onları analitik düşünməyə, tarixi faktlara tənqidi yanaşmağa və informasiyanı düzgün seçib emal etməyə hazırlayır. Rəqəmsal mənbələrdən istifadə, elektron arxivlər, interaktiv xəritələr, xronoloji cədvəllər və multimedia resursları şagirdlərin tarixi hadisələri daha dərindən qavramasına şərait yaradır. Bu isə tarix fənninin sadəcə əzbərləmə predmetindən çıxaraq, düşünmə və tədqiqat fənninə çevrilməsinə imkan yaradır. Eyni zamanda, İKT-nin tarix təliminə inteqrasiyası inklüziv təhsil baxımından da mühüm əhəmiyyət kəsb edir. Müxtəlif öyrənmə ehtiyaclarına malik olan təhsilalanlar üçün vizual, audio və interaktiv materiallar fərdi yanaşmanın həyata keçirilməsinə imkan verir. Bu isə təhsil prosesində bərabər imkanların təmin olunmasına və təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. İKT vasitəsilə tarix dərsləri daha cəlbedici, əlçatan və praktik xarakter alır, şagirdlərin fənnə marağı və motivasiyası artır.

Hal-hazırda müasir pedaqoji yanaşmalarla İKT-nin inteqrasıyası ən vacib məsələlərdən biridir. Müasir pedaqogikada fərdi yanaşma əsas meyarlardandır. Bu mənada fərqləndirilmiş öyrənmədə İKT fərdi tempə uyğunlaşdırılmalıdır. Zəif və güclü şagirdlərə əlavə video materialların təklifi zamanı onların dərketmə, qavrama səviyyələri nəzərə alınmalıdır. Bu şagirdlərin problemi dərk etməsi və həll-etmə yanaşmasında şagirdlər virtual simulyasiyalarda (məsələn, "Treaty of Versailles" simulyator platforması) tarixi qərarları modelləşdirirlər və bu onların kritiki düşüncələrinin inkişafına gətirib çıxarır. Layihə əsaslı öyrənmədə (PBL) qruplar Google Sites-də istənilən tarixi mövzunu seçib layihə yarada bilirlər, araşdırma və kollektiv redaktə bacarıqlarını birləşdirirlər.

Tarixin tədrisinə İKT-nin inteqrasiyası Bloom taksonomiyasının yüksək səviyyələrini (analiz, sintez) formalaşdırdığı kimi, həm də Azərbaycan Milli Kurrikulumu ilə uyğundur.

Təhsilalanlarda İKT-dən istifadə bacarıqlarının formalaşdırılmasında müəllimlərin seçdiyi metod və strategiyalar xüsusi önəm daşıyır. Belə ki, Tarix müəllimləri təhsilalanlarda İKT bacarıqlarını formalaşdırmaq üçün mövzuya uyğun evdə video izləmə, dərsdə müzakirə etmə (flip-classroom) və ya ənənəvi sinif otağı təlimi ilə rəqəmsal təlim texnologiyalarının birləşdirilməsi (blended learning) strategiyalarından istifadə edirlər. Strategiyalar təhsilalanların inkişafına hədəflənməklə yanaşı İKT-nin Tarixin tədrisinə inteqrasiyasını gücləndirir [4].

Tarixin tədrisində İKT-dən istifadənin üstünlükləri danılmazdır. Tarix dərslərində İKT alətləri şagirdlərin diqqətini cəlb edərək abstrakt hadisələri konkretləşdirir və öyrənməni interaktiv edir. İKT-

dən istifadə Tarix dərslərinin vizuallaşdırılmasını təmin edir. Bu da təhsilalanlarda xatırlamanı artırır, həmçinin fərdiləşdirməni asanlaşdırır və onlarda motivasiyanı artırır.

Hazırda cəmiyyətin üzləşdiyi problem təhsil sistemində kompüterlərin düzgün, optimal və təhlükəsiz istifadənin təmin olunma çətinliyidir. İKT-nin tədrisə tətbiqinin bir sıra çətinlikləri var. Bu çətinliklər əsasən texniki infrastruktur çatışmazlığıdır. Xüsusilə kənd yerlərində internetin zəif paylanması, rəqəmsal bacarıqların bərabərsizliyi İKT-dən istifadəni çətinləşdirir. İKT-dən istifadənin müsbət tərəfləri ilə yanaşı mənfi təsirləri də mövcuddur. Belə ki, İKT-dən istifadə bəzi təhsilalanların diqqətini dağıdır və öyrənmə keyfiyyətini aşağı salır. Bu problemi həll etmək üçün fərdiləşdirilmiş yanaşma xüsusi önəm daşıyır. Digər mənfi tərəfləri isə rəqəmsal yorğunluq və sağlamlıq problemlərini qeyd etmək olar. Uzun müddət ekran qarşısında qalma göz yorğunluğu, duruş pozğunluqları və diqqət dağılmasını yaradır. Bununla yanaşı uzunmüddətli kompüter arxasında oturmaq radiasiya riski daşıyır.

Eyni zamanda məlumat axtarışı zamanı tarixi hadisələrə aid çoxsaylı mənbələr təhsilalanlarda informasiya həcmi yükünü artırır. Nəticədə səthi öyrənmə və ya dezinformasiya riski yaranır. Bu vaxt müəllim məlumatların doğruluğunu dərsliklərə əsasən təhsilalanların diqqətinə çatdırmaqla onlara həqiqi biliklərin tədqiqində yol göstərməlidir.

Nəticə. Müasir mərhələdə süni intellektin (AI) tədris prosesinə inteqrasiyası tarix təlimində yeni imkanlar açır. Uyğun süni intellekt modellərinin tətbiqi ilə şagirdlərin bilik səviyyəsinin qiymətləndirilməsi, fərdi öyrənmə trayektoriyalarının qurulması və adaptiv təlim mühitlərinin yaradılması mümkündür. Süni intellekt əsaslı platformalar tarixi mətnlərin analizi, mənbələrin müqayisəsi və tarixi hadisələr arasında səbəb-nəticə əlaqələrinin qurulması prosesində təhsilalanlara dəstək verə bilər. Bu isə tarix fənninin daha dərin və sistemli şəkildə mənimsənilməsinə şərait yaradır. Virtual reallıq (VR) texnologiyalarının tarix tədrisində istifadəsi isə şagirdlərə tarixi hadisələri "canlı şəkildə yaşamaq" imkanı verir. Tarixi döyüşlərin, qədim şəhərlərin, memarlıq abidələrinin və mühüm tarixi məkanların virtual mühitdə təqdim olunması şagirdlərin tarixi təsəvvürlərini zənginləşdirir və öyrənmə prosesini daha təsirli edir. VR texnologiyaları vasitəsilə tarix abstrakt anlayışlar toplusu olmaqdan çıxaraq, real təcrübəyə yaxınlaşır və şagirdlərdə tarixi empatiya formalaşır. Bununla yanaşı, qeyd etmək lazımdır ki, tarix təlimində İKT, süni intellekt və virtual reallıq texnologiyalarının effektiv tətbiqi təhsilverənlərin peşəkar hazırlıq səviyyəsindən birbaşa asılıdır. Müəllimlərin rəqəmsal savadlılığı, texnoloji bacarıqları və innovativ pedaqoji yanaşmaları olmadan bu vasitələrin tədrisə inteqrasiyası formal xarakter daşıya bilər. Bu səbəbdən müəllim hazırlığı proqramlarında İKT-kompetensiyalarının, rəqəmsal pedaqogikanın və müasir texnologiyalardan istifadə metodikasının xüsusi yer tutması vacibdir. Nəticə etibarilə, tarix təlimində İKT bacarıqlarının formalaşdırılması təhsilalanları keçmişə bağlı saxlamaq deyil, əksinə, tarixi təcrübədən düzgün nəticələr çıxararaq gələcəyə hazırlamaq məqsədi daşıyır. İnformasiya dövrünün çağırışlarına cavab verən, tənqidi düşünən, analitik yanaşmaya malik və texnologiyadan səmərəli istifadə edə bilən nəsil yetişdirmək üçün tarix tədrisi müasir texnoloji imkanlarla zənginləşdirilməlidir. Süni intellekt, virtual reallıq və digər rəqəmsal texnologiyaların tarix təliminə inteqrasiyası təhsilin keyfiyyətinin yüksəldilməsində, şagirdlərin intellektual potensialının inkişafında və gələcək cəmiyyətin formalaşmasında strateji əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Abdullayeva S., Abbasova S. Təhsil prosesində İKT-nin tətbiqinə və keyfiyyətinə sistemli yanaşma prinsipləri haqqında. "Elektron dövlət quruculuğu problemləri" I Respublika elmi-praktiki konfransı. Bakı, 4 dekabr, 2014, s.166-169.
2. Əliyev V.R. İnformasiya komminukasiya texnologiyalarının tarixin tədrisində rolu // Bakı Qızlar Universiteti. Elmi əsərləri. Cild 11 №4 2020(44), s. 137-141. - http://www.anl.az/down/meqale/elmi_eser_bqu/2020/04/809030(meqale).pdf [26.01.2026].
3. Mustafayev A., Bağırov R., Rzayeva R., Süleymanova M. Tarix dərslərində kompüter texnologiyalarından istifadə // Bakı, Qədim diyar. Beynəlxalq Onlayn Elmi Jurnal. 2024/Cild: 6, Sayı:5/61-67. https://www.aem.az/uploads/files/2024-06/1717775623_qedim-diyar-6_5-56-62.pdf [26.01.2026].
4. Məmmədli N.X. Tarix dərslərində İKT-dən səmərəli istifadənin öyrənmə prosesinə təsiri. https://tehsiledestek.wordpress.com/2013/05/16/tarix-d%C9%99rsl%C9%99rind%C9%99-ikt-

d%C9%99n-s%C9%99m%C9%99r%C9%99li-istifad%C9%99nin-oyr%C9%99nm%C9%99-prosesin%C9%99-t%C9%99siri-nizami-xaliq-oglu-m%C9%99mm%C9%99dli-qusar-rn-piral/ [26.01.2026].

СОНА МАГЕРРАМОВА
Доцент Сумгаитского государственного университета

ФОРМИРОВАНИЕ НАВЫКОВ ИСПОЛЬЗОВАНИЯ ИКТ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ИСТОРИИ

В современной системе образования информационно-коммуникационные технологии (ИКТ) выступают неотъемлемым компонентом учебного процесса, существенно трансформируя содержание и методы преподавания истории. В статье анализируется роль ИКТ в обучении истории, а также рассматриваются вопросы формирования у учащихся умений и навыков использования цифровых технологий в образовательной деятельности. Показано, что применение ИКТ не только способствует более эффективному усвоению исторических знаний, но и развивает критическое мышление, исследовательские компетенции и навыки обработки информации. Особое внимание уделяется возможностям реконструкции исторических событий в виртуальной среде, использованию интерактивных карт и симуляций, а также влиянию цифровых инструментов на повышение наглядности и мотивации обучающихся. Отмечается, что формирование ИКТ-компетенций является одним из ключевых факторов повышения качества учебного процесса и расширения инклюзивных образовательных возможностей, несмотря на существующие педагогические и технологические трудности интеграции ИКТ в преподавание истории.

Ключевые слова: преподавание истории, ИКТ, интерактивное обучение, формирование навыков, методы и стратегии.

SONA MAHARRAMOVA
Associate Professor of Sumgayit State University

FORMATION OF ICT USAGE SKILLS IN HISTORY TEACHING PROCESS

In the modern education system, information and communication technologies (ICT) have become an essential and integral component of the teaching and learning process, significantly transforming the content and methods of history education. This article analyzes the role of ICT in history teaching, the development of students' skills in using digital technologies, their integration with contemporary pedagogical approaches, and the challenges encountered in this process. It is demonstrated that the application of ICT not only facilitates the effective acquisition of historical knowledge but also contributes to the development of critical thinking, research skills, and information processing competencies. Particular attention is given to the reconstruction of historical events in virtual environments and the use of interactive maps and simulations, which enhance students' motivation and make history lessons more visually engaging. Ultimately, the formation of ICT competencies is identified as one of the key factors in improving the quality of the educational process and expanding inclusive education opportunities, while also acknowledging existing pedagogical and technological limitations.

Keywords: history teaching, ICT, interactive learning, skill formation, methods and strategies.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 26 yanvar 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Sevinc Ruintən, t.e.d. Anar İsgəndərov.